BÜRKÜT

Türk Dünyası Dergisi

BÜRKÜT

Journal of Turkish World

www.burkutdergisi.com

Araştırma Makalesi

Makale Geliş Tarihi: 29.05.2024

Makale Kabul Tarihi: 06.06.2024

Valehoğlu Hacılar, F. (2024). Gürcüstan Qarapapaqları Gürcüstan Demokratik Respublikasının ərazi bütövlüyünün və müstəqilliyinin müdafiəsində. *Bürküt Türk Dünyası Dergisi*, *3*(1), 21-39. https://doi.org/10....................

# GÜRCÜSTAN QARAPAPAQLARI GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN VƏ MÜSTƏQİLLİYİNİN MÜDAFİƏSİNDƏ

*Dr. Fahri VALEHOĞLU HACILAR*

*Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı* haciyevf@yahoo.com ORCID

**Öz**

1918-ci ilin 26 may tarixində müstəqilliyini elan etmiş Gürcüstan Demokratik Respublikası (GDR) mövcudiyyəti dönəmində qonşu ölkələrlə mübahisəli ərazi problemləri ilə qarşılaşmış və bu xüsusda, eləcə də müstəqilliyinin qorunması yönündə bir sıra xarici təhdidlərlə üzləşmişdir. Həmin problemlərin danışıqlar yolu ilə, beynəlxalq konfranslar vasitəsilə həll olunmasına cəhd göstərilsə də, bu, hər zaman mümkün olmurdu və silahlı qarşıdurmaya səbəb olurdu.

Ermənistan (Ararat) respublikası ilə GDR arasındakı mübahisəli ərazi problemi 1918-ci ilin dekabr ayında Ermənistanın hərbi təcavüzü nəticəsində Gürcüstan-Ermənistan müharibəsinə çevrilmişdir. Nəticədə Borçalı qəzasının Lori nahiyəsi Ermənistanın tərkibinə keçmişdir. 1921-ci ilin fevral ayında isə Lori nahiyəsi üzərindən bolşeviklərin hücumu Qafqazda sovetləşməyən sonuncu demokratik respublika olan GDR-in süqutu ilə nəticələnmişdir.

GDR-in əsas etnik qruplarından olan qarapapaqlar 1918-1921-ci illərdə gürcü xalqı ilə eyni mövqedə dayanaraq ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda ləyaqətlə döyüşüblər. Məqalədə Gürcüstan qarapapaqlarının Ermənistanla müharibədə və sovet işğalına qarşı döyüşlərdə, əsasən, könüllü süvari dəstələrdə və xalq qvardiyası sıralarında, sovetləşmədən sonra isə partizan dəstələrində fəal iştirakı tədqiq olunur.

**Anahtar Sözcükler:** Gürcüstan Demokratik Respublikası, Qarapapaqlar, Borçalı, 1918ci il Ermənistan-Gürcüstan Müharibəsi.

## KARAPAPAKHS OF GEORGIA IN DEFENSE OF THE TERRITORIAL INTEGRITY AND INDEPENDENCE OF THE DEMOCRATIC REPUBLIC OF GEORGIA


**Abstract**

During its existence, the Democratic Republic of Georgia (DRG), which declared its independence on May 26, 1918, faced disputed territorial issues with neighboring countries and faced a number of external threats in this regard, as well as in the defense of its independence. Although an attempt was made to resolve these problems through negotiations and international conferences, this was not always possible and led to armed conflict.

The disputed territorial issue between the Republic of Armenia (Republic of Ararat) and the DRG turned into the Georgian-Armenian war as a result of Armenia's military aggression in December 1918. As a result, the Lori uchastok (subcounty) of Borchaly uezd (county) became part of Armenia.

In February 1921, the attack of the Bolsheviks on the Lori region resulted in the fall of the DRG, the last non-Soviet democratic republic in the Caucasus.

The Karapapakhs, a sub-ethnic branch of the Azerbaijani Turks, living compactly in the GDR, fought with dignity for the territorial integrity and independence of the country, standing in solidarity with the Georgian people in 1918-1921.

The article examines the active participation of Georgian Karapapakhs in the war with Armenia and against the Soviet occupation, focusing primarily on their involvement in volunteer cavalry units and ranks of the People's Guard, and their roles in partisan units after Sovietization.


**Keywords:** Democratic Republic of Georgia, Karapapakhs, Borchaly, Armenian-Georgian War (1918).

### Giriş

1918-ci ilin 26 may tarixində müstəqilliyini elan etmiş Gürcüstan Demokratik Respublikası (GDR) mövcudiyyəti dönəmində qonşu ölkələrlə mübahisəli ərazi problemləri ilə qarşılaşmış və bu xüsusda, eləcə də müstəqilliyinin qorunması yönündə bir sıra xarici təhdidlərlə üzləşmişdir. Həmin problemlərin danışıqlar yolu ilə, beynəlxalq konfranslar vasitəsilə həll olunmasına cəhd göstərilsə də, bu, hər zaman mümkün olmamış və silahlı qarşıdurmalara səbəb olmuşdur.

Ona görə də GDR rəhbərliyi qarşısında duran əsas məqsədlərdən biri nizami ordunun yaradılmasından ibarət idi. Ordu quruculuğu istiqamətində atılan ilk addımlar müvafiq qanunvericilik bazasının yaradılmasına yönəlmiş, nizami ordunun təşkili ilə bağlı xüsusi qanun və nizamnamələr qəbul olunmuşdu.

20 avqust 1918-ci ildə qəbul olunmuş hərbi idarəçilik və daimi ordunun komplektləşdirilməsi nizamnamələrinə görə, 20-45 yaşında Gürcüstan vətəndaşları, müsəlmanlar xaric, hərbi mükəlləfiyyətli hesab olunurdular; hərbi qulluğun ümumi müddəti 25 ildən ibarət olsa da, gənclər həqiqi hərbi xidmətdə 2 il keçirdikdən sonra ehtiyata buraxılmalı idilər (Gürcüstan Demokratik Respublikası (1918-1921). Ensiklopediya-sözlük, 2018, s. 391).

GDR-in sosial-demokrat yönümlü hökuməti nizami ordu hissələrinə paralel özünün partiyalı hərbi birləşmələrini – xalq qvardiyasını formalaşdırmışdı. Qeyd edək ki, gürcü sosial-demokratları hələ Zaqafqaziya Komissarlığı dövründə, 12 dekabr 1917-ci ildə həmin il baş vermiş inqilablar nəticəsində anarxiya və xaosa məruz qalmış Tiflis və Kutais quberniyalarında qayda-

qanunun təmin edilməsi məqsədilə öz partiya təşkilatlarının "qırmızı qvardiya" adlanan hərbiləşdirilmiş dəstələrini yaratmışdılar. Parlament funksiyasını yerinə yetirən Gürcüstan Milli Şurasının 1918-ci ilin 2 iyul tarixində qəbul etdiyi "Gürcüstan xalq qvardiyası haqqında" qanuna əsasən, "qırmızı qvardiya" "xalq qvardiyası"na çevrilmişdi. Bu qanuna görə, qvardiyanın başlıca məqsədi respublikanın müstəqilliyinin qorunmasından ibarət idi.

Xalq qvardiyasında həmin dövrdə nizami ordu sıralarında həqiqi hərbi xidmətə mükəlləfiyyətli olmayan istənilən vətəndaş qulluq edə bilərdi. Xalq qvardiyaçısı hökumətin ilk çağırışındaca qvardiyanın bölgə qərargahına gəlməli idi. Könüllülər qvardiyada təmənnasız xidmət edirdilər, fəqət xidməti vəzifələrini döyüş şərtlərinə uyğun olaraq yerinə yetirəndə hökumət tərəfindən onlara maddi yardım göstərilirdi, təlimatçılar və zabitlər isə baş qərargahdan maaşla təmin olunurdular. Qvardiya sülh şəraitində vilayət və rayon qərargahları vasitəsilə baş qərargaha, müharibə şəraitində isə baş komandana tabe idi (Gürcüstan Demokratik Respublikası (1918-1921). Ensiklopediya-sözlük, 2018, s. 391).

Xalq qvardiyası özünün artilleriyası, zirehli qatarları, mühəndis-istehkam qoşunları və digər hərbi birlikləri ilə tez bir zamanda ölkənin ikinci hərbi təşkilatı statusuna sahib olmuşdu.

Qırmızı qvardiyanın yaranma günü – 12 dekabr Xalq Qvardiyası Günü elan edilmiş və ilk olaraq 12 dekabr 1918-ci ildə bütün Gürcüstan ərazisində, o cümlədən Tiflis qəzasının Qarayazı nahiyəsində təntənəli şəkildə qeyd olunmuşdur. Azərbaycan türklərinin subetnik qolu olan qarapapaqların kompakt yaşadığı Qarayazıdakı təntənə barədə "Bartsxaneli" imzalı müəllif Gürcüstan sosial-demokratlarının aparıcı yayım orqanı olan "Ertoba" qəzetində "Qarayazıda "Xalq Qvardiyası Günü"" başlıqlı məlumat xarakterli məqaləsində yazırdı:

> Fədakar azadlıq döyüşçülərinin bayramı burada da münasib şəkildə keçirildi. Bir gün əvvəl bütün stansiya və orada dayanan zirehli qatar yaşıl rəngdə bəzənmişdi. 12 dekabr səhəri stansiya qarşısında zirehli qatarın xalq qvardiyaçıları düzülmüşdü. Onlara sözlə yoldaş A.Qoquadze müraciət etdi. Daxıllara pul yığmağa başladılar. Bu zaman Qarayazı rayonunun süvari tatar (türk-qarapapaq – F.V.-H.) milisinin müşayiəti ilə "Dzmoba" (Qardaşlıq), "Ertoba" (Birlik) (yeni kəndlərdir) və Qaratəpə kəndlərinin sakinlərinin prosessiyası (kütləvi yürüşü) göründü. Zirehli qatarın qvardiyaçıları stansiyanın qarşısındakı düzəngahda dayanan bu yürüşə qoşuldular. Burada onlara rus dilində nitqlə Qarayazı rayonunun komissarı yoldaş Abbasqulu Nuriyev sözlə müraciət etdi:
>
> "Hümmət" sosial-demokrat partiyasının adından sizləri, Gürcüstanı anarxiya və vətəndaş müharibəsindən xilas edən yoldaş xalq qvardiyaçılarını salamlayıram. Sizin azadlıq və dostluğun müdafiəsi üçün tökülmüş qanlarınızla, yoldaşlar, bugün Gürcüstanın ərazisində dalğalanan bayraqlar rənglənibdir. Yalnız burada, Gürcüstanda inqilabın qazandırdığı hər bir şey saxlanılıb. Bütün bunlar sizin əməyin və Gürcüstanda şüurlu demokratiyanın işinin qazancıdır. Bizim arzumuz odur ki, qonşu Azərbaycanda xalqın oğulları öz hüquqlarını qorumaq üçün qalxsınlar, xanların və bəylərin ağır ağalığını uzaqlaşdırsınlar, evlərində qırmızı azadlıq bayrağı dalğalandırsınlar və özlərinə qonşu olan gürcülər kimi bu gün qaranlıqda və yoxsulluq içində yaşayan fəhlələrin xoşbəxtliyi üçün mədəni yaradıcılıq fəaliyyətinə başlasınlar.
>
> Yoldaşlar, yaşasın beynəlxalq Sosial-Demokrat Fəhlə Partiyası!
>
> Yaşasın Gürcüstan Demokratik Respublikası və onun ayıq-sayıq gözətçiləri!
>
> Yaşasın xalqların həmrəyliyi!

Yoldaş Nuriyevi sürəkli alqışlarla mükafatlandırdılar. Bundan sonra yürüş Qaratəpə kəndi tərəfə istiqamət götürdü. Yolboyu onları insanlar qarşılayıb salamlayır və sevinclə qarşılığını götürürdülər. Yürüş iştirakçıları Qaratəpə kəndindəki meydanda yayıldılar. Burada xalqa yoldaş Zodelava müraciət edərək onları Sosial-Demokrat Fəhlə Partiyasının Qarayazı təşkilatının adından salamladı və Xalq qvardiyası bayramı münasibətilə təbrik etdi. Həmçinin, tatar dilində (Azərbaycan türkcəsində - F.V.-H.) "Hümmət" sosial-demokrat partiyasının üzvü olan milis çıxış edərək xalqa bugünkü bayramın əhəmiyyəti və xalq qvardiyasının anarxiyaya qarşı mübarizədə rolu barədə danışdı. Xalq natiqlərə fərəhlə qulaq asırdı.

Yoldaş Nuriyev tərəfindən xalq qvardiyası üçün 2100 manat toplandı.

Bundan sonra zirehli qatarla Azərbaycan sərhədinə yola düşdük, Əkinçilik Nazirliyinin səlahiyyətlisi aqronom V.Dadiani, yoldaş Nuriyev, "Dzmoba" və "Ertoba" kəndlərinin nümayəndələri bizi müşayiət etdilər. Yolda daxıllarla pul yığırdıq. Xalq hər yanda bizi sevinclə qarşılayırdı. Axşam yerli yoldaşlar və ictimaiyyət zirehli qatarın xalq qvardiyaçıları üçün şam yeməyi verdilər (Ertoba, 1918, s. 3).

Gürcüstan qarapapaqları dini mənsubiyyətlərinə görə nizami ordu sıralarına hərbi xidmətə çağırılmasalar da, xalq qvardiyası sıralarında, eləcə də ölkənin ərazi bütövlüyü və müstəqilliyi ciddi təhdidlərlə üzləşəndə çevik şəkildə yaratdıqları könüllü süvari dəstələrində cəsarətlə və mətanətlə döyüşərək Vətən qarşısında borclarını şərəflə yerinə yetirmişdirlər.

## Qarapapaq Könüllüləri 1918-ci İl Ermənistan-Gürcüstan Savaşı Zamanı

1918-ci il gürcü mətbuatının xəbərlərindən bəlli olur ki, Borçalı və Axalkələk qəzalarına iddialı olan Ermənistanın silahlı qüvvələrinin həmin ilin 12 dekabr tarixində Borçalı qəzasının Lori nahiyəsində – Sənain məntəqəsində mövqe tutan Gürcüstan sərhəd bölmələrinə hücumu ilə başlanmış Ermənistan-Gürcüstan müharibəsi zamanı Qarayazı nahiyəsinin və Borçalı qəzasının qarapapaqları tez bir zamanda könüllü dəstələr təşkil edərək Gürcüstan hərbi komandanlığının əmrinə müntəzir dayanmışdırlar. Gürcüstan milli-demokratlarının mətbu orqanı "Sakartvelo" qəzetinin 21 dekabr 1918-ci il tarixli sayında Borçalı qəzasının Gürcü-Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri K.Svimonişvilinin Borçalıda könüllülər dəstəsinin yaradılması ilə bağlı hökumət qarşısında vəsatət qaldırdığı bildirilirdi (Sakartvelo, 1918, s. 2). "Sakartvelo"nun növbəti sayında isə belə bir məlumat dərc olunmuşdu: "Cümə günü, 20 dekabrda 400 nəfərlik müsəlman atlı dəstəsi Qarayazıdan Tiflisə gəlmişdir" (Sakartvelo, 1918, s. 3).

Qarayazılıların könüllü süvari dəstəsinə bu bölgənin komissarı, hümmətçi Abbasqulu Nuri oğlu (Nuriyev) komandanlıq edirdi. Bununla bağlı "Sakartvelos Respublika" rəsmi dövlət qəzetinin 25 dekabr 1918-ci il tarixli sayında "Müsəlman dəstəsi" başlıqlı məlumatda aşağıdakılar qeyd olunurdu:

"General-qubernator Mağlakelidze başqa-başqa qəzalarda asayişi qorumaq üçün müsəlman dəstələri də yaratmışdı. İndi Mağlakelidze Tiflisin general-qubernatoru təyin olunduqdan sonra bu dəstələr onun yanına öz silahları ilə gəlib kömək və xidmət etməyə söz verirlər. Artıq Abbasqulu Nuri oğlunun başçılığı altında Qarayazıdan müsəlmanların dəstəsi gəlmişdir" (Sakartvelos respublika, 1918).

"Sakartvelos Respublika"nın başqa bir sayında da Tiflis qəza komissarı Qomartelinin verdiyi məlumata istinadən şəhərdə "əmin-amanlığı və qayda-qanunu təmin etmək üçün"

Qarayazıdan müsəlmanların süvari dəstəsinin Tiflisə gəldiyi bildirilirdi (Sakartvelos respublika, 1918, s. 3).

Döyüş arealının tam mərkəzində yaşayan Borçalı qəzasının türk-qarapapaq əhalisi də Qarayazı nahiyəsində yaşayan soydaşları kimi Gürcüstan hökumətinə açıq dəstək nümayiş etdirərək qəzanın heç bir vəchlə Ermənistanın nəzarətinə verilməsinə razı olmayacaqlarını bəyan edir, dədə-baba yurdlarına soxulmuş düşmənə qarşı mərdcəsinə döyüşürdülər. “Sakartvelo” qəzetinin 27 dekabr 1918-ci il tarixli sayında dərc olunmuş “Borçalı və Cavaxetiya” başlıqlı yazıda Borçalıda “tatar”ların yunanlar və alman kolonistləri ilə birgə gürcülərlə həmrəy olduğu vurğulanırdı (Sakartvelo, 1918, s. 1). “Sakartvelos Respublika” və “Ertoba” qəzetlərində isə “Borçalı müsəlmanlarının bəyanatı” sərlövhəsi altında Borçalı qəzasının müsəlman sakinləri Məmməd Hacı oğlu və Hüseyn Təhməz oğlunun aşağıdakı məzmunda bəyanatlarının mətni çap olunmuşdu:

> Biz, Borçalı qəzasının müsəlman sakinlərinin nümayəndələri Məmməd Hacı oğlu və Hüseyn Təhməz oğlu öz xalqımız adından bütün bölgənin demokratiyasına və hökumətlərinə aşağıdakıları bəyan etməyi zəruri hesab edirik: “Ərazisində uzun müddətdir yaşadığımız Gürcüstanın hökuməti Azərbaycan və Ermənistan hökumətlərinə bir neçə dəfə təkliflə müraciət etdi ki, Cənubi Qafqaz konfransına öz nümayəndələrini göndərsinlər. Onlar ümumi razılıq əsasında Cənubi Qafqaz respublikaları arasında bütün mübahisəli məsələləri, o cümlədən Borçalı qəzası ilə bağlı məsələni sülh yolu ilə həll etməli idilər. Azərbaycan hökuməti bu təklifi dəstəklədi və öz nümayəndələrini təyin etdi, ancaq Ermənistan hökuməti bəlli olmayan məntiqlə nümayəndələr göndərməkdən və ermənilərin nizami ordusu bizim üzərimizə hücum edənədək mübahisəli məsələlərin sülh yolu ilə həll olunmasından vaz keçdi. Biz qəti surətdə bunları bildiririk: Ümumiyyətlə istənilən müharibələrin əleyhinəyik, bu mənasız və dəhşətli müharibənin təcili dayandırılmasını tələb edirik. Bizim əraziyə hücum edilməsinə səbəb olan və bizim torpaqları öz dövlətlərinə birləşdirməyi düşünən Ermənistan hökuməti bilməlidir ki, biz, Borçalı müsəlmanları öz tariximizdə Ermənistanın tabeliyində olduğumuz hansısa bir dövrü xatırlamırıq. Biz elə başdan Gürcüstanın sərhədlərinə daxil idik və burada yaşayırdıq. Ona görə də, Ermənistan hökumətinin bizi güclə öz dövlətinə birləşdirmək istəyini təəccüblə qarşıladıq.
>
> Əminik ki, hazırkı inqilab dövründə hər bir xalqın özünün müqəddəratını həll etmək hüququ var və biz bizdən soruşmadan, istəyimiz əleyhinə bu və ya digər dövlətə birləşdirilməmizi qəbul edə bilməyəcəyik. Bəyan edirik ki, Cənubi Qafqaz konfransınadək, bütün məsələlərin sülh yolu ilə nizamlanmasınadək, biz borçalılar özümüzü Gürcüstan Demokratik Respublikasını vətəndaşı hesab edirik, hökumətimizə var-gücümüz ilə kömək etməyə borcluyuq. Ona görə də Ermənistan hökumətindən qəti şəkildə tələb edirik ki, təcili olaraq hərbi əməliyyatları kəssin, öz ordusunu sərhəddən o yana geri çəksin və Borçalı məsələsinin, bütün digər mübahisəli məsələlər kimi, sülh yolu ilə ümumi razılıq əsasında həll olunmasına çalışsın.
>
> Hamının bilməsi üçün onu da bəyan edirik ki, biz, Rusiyanın böyük inqilabının şüurlu və inqilabçı vətəndaşları vətənimizdə anarxiya yaradılmasına, təbii və siyasi haqlarımızın təhdid olunmasına heç zaman imkan verməyəcəyik. Öz ərazilərimizi və azadlığımızı bizi kölə halına salmağa cəhd göstərəcək istənilən silahlı qüvvədən qorumağa hazırıq. Bundan sonra bunun səbəb ola biləcəyi istənilən nəticə və məsuliyyət bizim düşmənlərimizin üzərinə düşür (Ertoba, 1918, s. 2; Qruziya, 1918; Sakartvelos respublika, 1918, s. 3).

Gürcüstan Milli Şurasında yerli türk icmasının nümayəndələri qismində millət vəkili mandatına sahib olan Əziz Şərif və Əbdürrəhim bəy Haqverdiyev parlament iclaslarında təmsilçisi olduqları toplumun dövlətçilik və ölkənin ərazi bütövlüyü ilə bağlı tutduğu vətəndaşlıq mövqeyini açıq şəkildə ortaya qoyurdular. Əziz Şərifin parlamentin 15 oktyabr 1918-ci il tarixli iclasında türk-müsəlman deputatların adından səsləndirdiyi bəyanatdan bir parça: "... Bilin, bu gənc dövləti hansı sınaqların gözləməsindən və hansı təhlükələrin təhdid etməsindən asılı olmayaraq biz cəsarətlə, davamlı olaraq sizinlə (gürcülərlə - F.V.-H.) çiyin-çiyinə addımlayacağıq və həm sevincinizi, həm də gələcəkdə mümkün kədərinizi qardaşcasına bölüşəcəyik" (Borba, 1918; Kavkazskoye slovo, 1918; Ertoba, 1918, s. 2).

> ...Biz parlamentə daxil olanda və öz bəyanatımızda bildirdik ki, Gürcüstan müsəlmanları öz vətənlərini, düşmənin kim olmasından asılı olmayaraq, hər kəsdən bütün mümkün vasitələrlə qoruyacaqlar və indi də, sözdən əmələ keçmək lazım olan bir vaxtda da bu bəyanatı təntənəli şəkildə təkrar edirik (alqışlar). XVIII əsrin sonlarında mərhəmətsiz Ağa Məhəmməd xanın qoşunları Şuşa qalasını mühasirəyə alanda, şahzadə Aleksandr İrakli oğlunun başçılığı altında Gürcüstan ordusu Qarabağ xanı İbrahimi xilas etmək üçün yürüş etdi (Veşapeli: "Sizin yaxşı yaddaşınız var imiş!"). Bundan sonra İran şahı gürcülərə acıqlananda və öz qoşunlarını onların üzərinə yönəldəndə onda bizim Borçalı qəzasının müsəlmanları Gürcüstan qoşunlarının səflərində yer aldılar və öz dindaşlarına qarşı çıxdılar (Vaçnadze: "Yaşasın Borçalı!"). Bütün bunlar Borçalı qəzasının müsəlmanlarının törəmələrinin yaddaşında bugünədək yaşayır.
>
> Və indi müsəlman dəstəsi artıq yaranıbdır və onlar Gürcüstanın düşmənləri əleyhinə vuruşurlar (alqışlar). Bu düşmənlər yalnız Gürcüstanın deyil, bütün Cənubi Qafqazın müstəqilliyinə qarşı müharibə elan ediblər və müstəqilliyə dəyər verən hər kəs onu bütün vasitələrlə qorumalıdır. Müsəlmanlar bunu anlayır və Gürcüstan və Cənubi Qafqazın müstəqilliyini ayaqlar altına atmağa köklənənlərə qarşı məmnuniyyətlə mübarizə aparırlar (yerdən səslər: "Doğrudur"). Mən inanıram ki, Gürcüstan Respublikasının digər hissələrinin müsəlmanları: Siqnax, Telav, Axalsıx və digər qəzaların müsəlmanları da Borçalı müsəlmanları kimi davranacaqlar və bütün imkanlarından istifadə edərək onlar da öz vətənlərini dəstəkləyəcəklər.
>
> Və yenə də bəyan edirəm, parlamentə daxil olanda olduğu kimi, böyük məmnunluq hissi ilə bəyan edirəm: - Yaşasın Gürcüstan! (gur alqışlar) (Ertoba, 1918, s. 2; Sakartvelos Respublika, 1918, s. 2-3; Saxalxo Sakme, 1918, s. 2).

Ə.Haqverdiyevin parlamentdə etdiyi bu çıxışla eyni gündə Borçalı qarapapaqlarının təmsilçiləri Gürcüstan hökumətinin sədri Noe Jordaniya ilə görüşürlər. Bu görüş barədə məlumat dərc edən "Qruziya" rusdilli qəzetindən oxuyuruq:

> 17 dekabrda Gürcüstan hökumətinin sədri N.N.Jordaniyanı Borçalı qəzasının müsəlman əhalisini təmsil edən nümayəndə heyəti ziyarət etmişdir. Nümayəndə heyəti bildirmişdir ki, Borçalı qəzasına gəlmiş erməni dəstələri tərəfindən Borçalı qəzasının müsəlmanları arasında Ermənistanın Gürcüstan əleyhinə Azərbaycan və Türkiyənin razılığı və dəstəyi əsasında fəaliyyət göstərdiyi barədə şayiələr yayılıbdır. Tiflisə nümayəndə heyəti də elə bu şayiələrin həqiqiliyinə aydınlıq gətirilməsi məqsədilə göndərilib. Nümayəndə heyəti Türkiyə və Azərbaycan hökumətinin bu şayiələri qəti şəkildə təkzib edən təmsilçilərini ziyarət edib. Gürcüstan hökumətinin başçısının hüzuruna isə nümayəndə heyəti Borçalı qəzasının müsəlman əhalisinin

gürcü xalqına və hökumətinə dostluq münasibətlərini izhar etmək üçün gəlibdir (Qruziya, 1918).

22 dekabrda "Hümmət" partiyasının üzvlərinin Borçalı qəzasının və Tiflis qəzasının Qarayazı nahiyəsinin müsəlman əhalisinin nümayəndələrinin iştirakı ilə geniş tərkibli iclası keçirilir. GDR parlamentinin üzvü, "Hümmət"in rəhbəri Əbdüləziz Şərifovun sədrliyi və İsmayıl İsmayılovun katibliyi ilə baş tutan iclasın gündəliyi bu 4 məsələdən ibarət olur: 1. Ermənistanın Gürcüstana hərbi təcavüzünə qarşı mübarizə məqsədilə müsəlman könüllü dəstələrinin yaradılması; 2. Müsəlman zabitlərin bu könüllü dəstələrə cəlb olunması; 3. Gürcüstanın müsəlman əhalisi arasında səfərbərliklə bağlı təbliğat-təşviqat işlərinin aparılması; 4. Müsəlman könüllü dəstələrinin qərargahının təşkili (Probujdeniye, 1918).

Birinci məsələ üzrə Halay bəy Bayramovun geniş hesabat məruzəsi dinlənilir. Məruzə iclas iştirakçıları tərəfindən bəyənilir və eyni istiqamətdə işlərin aparılması istəyi ifadə olunur. Eyni zamanda yaradılan könüllü dəstələrə rəhbərlik etmək üçün xüsusi qərargahın təşkil olunması və onun general Mağalovun[1] Tiflisdə yerləşən qərargahı ilə əlaqəli şəkildə fəaliyyət göstərməsi qərarlaşdırılır. İkinci məsələnin müzakirəsi çərçivəsində könüllü dəstələrin sıralarına vaxtilə Ermənistanda olmuş və zabit rütbəsi almış bütün müsəlmanların çağırılması qərara alınır. İclasda iştirak edən bir neçə zabit könüllü dəstələrə daxil olub, Gürcüstan Respublikasını qorumağa hazır olduqlarını bildirir. Üçüncü məsələ ilə bağlı qərara alınır ki, "Hümmət" partiyasının və iclasda iştirak edən kənd icmalarının nümayəndələri əhali arasında təbliğat-təşviqat işlərinə cəlb olunsun. Bu xüsusda müsəlman əhaliyə ünvanlanan müraciətin mətni razılaşdırılıb çapa göndərilir. Sonra axırıncı məsələnin müzakirəsinə keçilir. Gizli səsvermə yolu ilə müsəlman könüllü dəstələrinin aşağıdakı 13 nəfərdən ibarət qərargahı seçilir:

"Hümmət" partiyasından – 1. Halay Bayramov, 2. Hüseynqulu Məmmədov (1919-cu ilin fevral ayında Müəssislər Məclisinin üzvü seçilir), 3. İsrafil İbrahimov, 4. Məşədi Əli İsgəndər oğlu, 5. İsmayıl İsmayılov;

Borçalı müsəlmanlarının nümayəndələrindən – 1. Mirzə Adıgözəl Həşimov, 2. Mürsəl Əsgər oğlu;

Qarayazı müsəlmanlarının nümayəndələrindən – 1. Abbasqulu Nuriyev, 2. Allahverdi Kəlbiyev, 3. Əhməd Tamayev, 4. Kazım Məmməd oğlu, 5. Əhməd Özdoyev, 6. Mahmudəli Məmmədəli oğlu.

Həmin gün qərargahın ilk iclası keçirilir və bu tərkibdə idarə heyəti formalaşdırılır: sədr - H.Bayramov, sədr müavinləri – İ.İbrahimov və Ə.Özdoyev, katiblər – İ.İsmayılov və A.Kəlbiyev. Eyni zamanda Ə.Şərifov (Əziz Şərif) qərargahın baş xəzinədarı seçilir. General L.Mağalovun Tiflisdəki qərargahı ilə daimi əlaqənin saxlanılmasına H.Bayramov, cəbhədə olan L.Mağalovun özü ilə birbaşa əlaqəyə A.A.Binnətov məsul şəxs təyin olunurlar (Probujdeniye, 1918).

Gürcüstan Sosial-Federalist İnqilabçı Partiyasının baş komitəsinin yayım orqanı "Saxalxo Sakme" qəzeti də digər gürcü mətbu orqanlarıtək öz səhifələrində oxucusunun diqqətini Gürcüstan azərbaycanlılarının Gürcüstan-Ermənistan müharibəsində tutduğu mövqeyə cəlb edərək, 22 dekabr 1918-ci il tarixli sayında "Borçalı müsəlmanları" xəbər başlığı altında yazırdı: "Borçalı müsəlmanlarının nümayəndələri hökumətə bəyan ediblər ki, Borçalı Gürcüstan

[1]GDR ordusunun hərbi komandanlarından olan Levan Luarsaboviç Mağalov (Mağalaşvili) Birinci Dünya müharibəsində "Tatar süvari alayı"nın sıralarında döyüşmüş, 5 iyul 1917-ci ildə həmin alayın komandiri təyin olunmuşdu.

sərhədləri daxilində qalmalıdır və ora müsəlmanları bura girmiş düşmənə qarşı Gürcüstanla birlikdə döyüşəcəklər" (Saxalxo sakme, 1918, s. 3). Bu qəzetin 1918-ci ilin dekabr ayında dərc olunmuş digər bir sayında "Kakuçela" imzalı müxbir həmin ilin 24 dekabrında döyüş meydanında baş vermiş hadisələrə toxunaraq qeyd edirdi: "General Lenko Mağalaşvilinin könüllü ordusu saatbasaat böyüyür. Borçalı tatarları eşidəndə ki, Mağalaşvili acgöz düşmənə qarşı könüllülər toplayır, bir gündə 2-3 kənddən 300 döyüşçü çıxdı, silah alıb öz baş zabitlərinin başçılığı ilə bizim orduya qoşuldular. Tatarlar deyirlər: Ölsək də, özümüzü o acgözlərə tabe etdirmərik" (Saxalxo sakme, 1918, s. 2).

Gürcüstan-Ermənistan müharibəsinin son günü – 31 dekabr 1918-ci ildə GDR hərbi nazir Qriqol Giorqadze türk-müsəlman könüllüləri ilə görüşür. Bu barədə "Sakartvelo" qəzeti 1 yanvar 1919-cu il tarixli sayında yazırdı: "Dünən günorta saat 1-də müsəlmanların çoxsaylı könüllülər dəstəsi hərbi nazirin yanına gəldi. Dəstənin başçısı söz verdi ki, Gürcüstan torpağında yaşayan müsəlmanlar əllərində silah "vətənləri Gürcüstanı son damla qanlarınadək qorumağı" öz müqəddəs borcları hesab edirlər. Dəstəni hərbi nazir salamladı" (Sakartvelo, 1919, s. 2). Qeyd olunan görüş barədə "Azerbaydjan" qəzeti də məlumat bölüşürdü:

> Tiflis müsəlmanlarının formalaşdırdığı könüllülər dəstəsi Gürcüstanın dalğalanan milli bayrağı ilə Baryatinskaya küçəsində Hərbi Nazirliyin binası qarşısında düzüldü. Yaxşı geyinmiş, cəsarətli görkəmləri ilə könüllülər gözəl təəssürat oyadırdılar. Dəstə qarşısına girişə qərargah zabitlərinin müşayiətində hərbi nazir Giorqadze çıxdı. Könüllü dəstənin komandiri nitqlə hərbi nazirə müraciət edib gürcülər və Gürcüstan ərazisində yaşayan müsəlmanlar arasında əsrlik dostluğu və buna sübut olaraq vətənin müdafiəsi üçün öz başlarını qoymağa hazır olan könüllülər dəstəsinin formalaşmasını qeyd etdi. Cavab nitqində cənab Giorqadze könüllülərin xoş təşəbbüsünü alqışladı və yalnız gürcülərin onların ölkəsini məskunlaşdıran xalqlara qarşı dözümlülüyünü deyil, həm də dəyişməz dost münasibətini vurğuladı, hansının ki nəticəsi müsəlmanların özlərini vətən naminə qurban verməyə hazır olmalarıdır. Sonda dəstə təntənəli marşla nizamlı cərgələrlə keçdi. Toplaşmış çoxsaylı publika onun qarşısından xalq musiqisinin sədaları altında şux addımlarla hərəkət edən könüllüləri heyranlıqla seyr edirdi. Əmr rus dilində verilirdi" (Azerbaydjan, 1919).

Gürcüstan qarapapaqları, qeyd etdiyimiz kimi, xalq qvardiyası sıralarında da xidmət edərək ölkənin ərazi bütövlüyü uğrunda döyüşlərdə canlarından keçirdilər. "Sakartvelo" qəzetinin 15 yanvar 1919-cu il tarixli sayında "A.L." imzalı müəllif "Böyük Liaxvi dərəsi" başlıqlı irihəcmli məqaləsinin son abzasında Tsxinvali məntəqəsində "buraya sığınmış Borçalı tatarı Həsən bəyin" və Şakro Kasradzenin dəfn olunduğunu yazırdı. Hər iki döyüşçü Ermənistan-Gürcüstan müharibəsində həlak olmuşdu. (Sakartvelo, 1919, s. 4).

Yeri gəlmişkən qeyd edək ki, 1919-cu ilin fevral ayında Axalsıx qəzasında baş vermiş üsyanın yatırılmasında fəal iştirak edən xalq qvardiyaçılarının arasında türklər də olur. Parlamentin 19 fevral 1919-cu il tarixli iclasında deputatlardan P.Sağvarelidze, N.Xomeriki çıxış edərək Ahısqa bölgəsində baş verən hadisələrdə yerli müsəlman əhalinin deyil, xarici qüvvələrin əli olduğunu, Ahısqa döyüşlərində gürcü ordusu ilə bərabər 250 yerli müsəlmanın son damla qanlarına qədər döyüşdüyünü, şəhəri də ən axırda elə onların tərk etdiyini deyirlər (Ertoba, 1919, s. 3). "Sakartvelo"nun 21 fevral 1919-cu il tarixli sayında Ahısqa döyüşlərində yaralanmış xalq qvardiyaçılarının siyahısı dərc olunur. Onlardan qvardiyanın I süvari alayının döyüşçüləri sırasında Hüseyn oğlu, Seyfulla Mirzə Əli xan, Musa İl oğlu adlarına rast gəlinir (Sakartvelo, 1919).

**Borçalı Qəzasının Gürcüstan-Ermənistan Arasında Bölünməsi Və "Neytral Zona"Da Qalan Qarapapaq Kəndləri**

Gürcüstanla Ermənistan arasında 1 yanvar 1919-cu ildə ingilislərin vasitəçiliyi ilə əldə edilmiş sülh razılaşmasının şərtlərinə görə, Antanta ali şurası tərəfindən iki ölkə arasında sərhəd xətti müəyyən olunana qədər Borçalı qəzasının şimalı Gürcüstanda qalmış, cənubu Ermənistanın yurisdiksiyasına daxil edilmiş, Ayrım və Şahalı stansiyaları arasında orta ərazi isə "neytral zona" elan edilərək müvəqqəti olaraq ingilis general-qubernatorunun nəzarətinə verilmişdi. Neytral zonanın türk-qarapapaq kəndləri Gürcüstanın hakimiyyəti altında qalmaq istəyir və bunun üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışırdılar. 1919-cu ilin ilk aylarında Tiflis quberniyasının komissarı Gürcüstan daxili işlər nazirini məlumatlandırırdı ki, neytral bölgədə yerləşən 6 müsəlman kəndinin (İlməzli, Cücəkənd, Soyuqbulaq, Yırğançay, Qaraqala və Qaraisa) sakinləri eyni ərazidə yaşayan erməni kəndlərinin sakinləri, xüsusən də Şahnazar erməniləri tərəfindən hücumlara məruz qalmaları, qarət olunmaları, mal-qaralarının oğurlanması və mülki insanların öldürülməsi ilə bağlı ona şikayət ünvanlayıb, bu bölgədə inzibati idarəçiliyin tətbiq olunmasını xahiş ediblər (Sakartvelo, 1919, s. 2-3).

Eyni ərəfədə sözügedən komissarın əmri ilə Konstantin Corcadze Ertso-Tioneti nahiyəsinin komissarı və milis rəisi vəzifəsindən azad olunub Borçalı qəzasının neytral zona sərhədlərindəki bölgəsinin komissarı ştatına keçirilir, Qiorqi Burduli Borçalı qəzasının milis rəisi, Aslan Nəzər oğlu Binyətov isə Borçalı nahiyəsinin komissarı və milis rəisi vəzifəsinə təyin olunurlar (Sakartvelos respublika, 1919, s. 2).

Borçalı qəzasının neytral zonada yerləşən, adı yuxarıda çəkilən 6 azərbaycanlı-müsəlman kəndinin əhalisi Gürcüstan hökuməti və Müəssislər Məclisi (parlamenti) qarşısında vəsatət qaldıraraq qəzanın mübahisəli hesab edilən ərazilərinin Gürcüstana birləşdirilməsi yönündə bütün mümkün tədbirlərin görülməsini istəyirdi. Gürcü mətbuatında da haqqında bəhs edilən, əhalinin səlahiyyətləndirdiyi cücəkəndli Alı Qara Qurban oğlu (icma komissarı Əhməd Qurbanovun atası), Məmməd Hacı Yusuf oğlu, Rüstəm Mustafa oğlu və Dilənçi Vəli oğlunun imzaladıqları 26 aprel 1919-cu il tarixli vəsatət məktubunda (xahişnamə) Borçalı qəzasının müsəlmanlarının həm Osmanlı hücumları, həm də Gürcüstan-Ermənistan müharibəsi zamanı Gürcüstanla həmrəy olduqlarını sübut etdikləri vurğulanır, qəzanın Lori nahiyəsinin Tiflislə sıx siyasi-iqtisadi, mənəvi və digər münasibətlərdə bağlılığına diqqət çəkilərək, onun tezliklə Tiflis quberniyasına birləşdirilməsi xahiş olunurdu (GMTA, f. 1833, s. 1, iş 167, vv. 33-35; Sakartvelo, 1919, s. 2; Sakartvelo, 1919, s. 2; Mustafa, 2020, s. 140-146).

Arxiv sənədlərindən Lori nahiyəsinin türk-qarapapaq kəndlərinin sakinlərinin paralel olaraq Azərbaycana birləşmək barədə də məsələ qaldırdıqları bəlli olur. Kənd sakinlərinin bu səpkili müraciətində deyilirdi:

> 1919-cu ilin 3 sentyabrında biz, İlməzli, Cücəkənd, Soyuqbulaq, Qaraqala, Qaraisa kəndlərinin aşağıda imza atan sakinləri icma komissarı Əhməd Qurbanovun sədrliyi ilə bizim ümumi icma toplantısına yığışaraq aralarında olan sərhədyanı mübahisələri həll etmək üçün Zaqafqaziya respublikalarının konfransının yenidən işə başladığı barədə məruzəni dinlədik, yekdillə qərar qəbul etdik: Azərbaycan Respublikasına birləşilsin və bu barədə kimin qarşısında lazımdır vəsatət qaldırması üçün icma komissarı Əhməd Qurbanova səlahiyyət verilsin (ARDA, f. 970, s. 1, iş 103, v. 18).

Bu müraciətin İlməzli icmasının toplantıda iştirak edən sakinləri tərəfindən imzalandığını Əhməd Qurbanov imza və möhürlə təsdiq edir. Qeyd olunan kəndlərin sakinlərinin verdiyi səlahiyyət əsasında icma komissarı Ə.Qurbanov Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrinə həmin gün məktub ünvanlayır:

> İlməzli, Cücəkənd, Soyuqbulaq, Qaraqala, Qaraisa kəndləridən, cəmi 300 ev və 2000 nəfərdən ibarət bizim kənd icmamızın hamısı Azərbaycan türkləridir və onların müqəddəs arzusu anaları Azərbaycan Respublikasının qanadları altında olmaqdır. 3 sentyabrda çağırılmış icma toplantısı sərhədyanı mübahisələrin həlli üçün Zaqafqaziya respublikalarının konfransının yenidən işə başladığı barədə məlumatı dinləyərək yekdilliklə qərar qəbul etdi: İcmanın Azərbaycan Respublikasına birləşdirilməsi xahiş olunsun və mənə Zati-alinizdən bizim icmanı nə Gürcüstana, nə də Ermənistana güzəştə getməməyi xahiş etmək üçün səlahiyyət verilsin (ARDA, f. 970, s. 1, iş 103, v. 18).

Bu icma qərarını təqdim edərək, kənd icması adından Azərbaycana birləşmək üçün səylərini əsirgəməməyi Nazirlər Şurasının sədrindən xahiş edən Ə.Qurbanov sonda yazırdı: “Qeyd olunanlara əlavə edirəm ki, bizim kənd icmamız erməni-gürcü müharibəsindən sonra neytral zonada qaldı, iki dəfə Gürcüstan hökumətinə Ermənistana güzəştə gedilməmək və iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün müraciət ünvanladı, ancaq bizim bütün rəğbətimiz və müqəddəs arzumuz Azərbaycanın bir hissəsi olmaqdan ibarətdir” (ARDA, f. 970, s. 1, iş 103, v. 19). Nazirlər Şurasından İlməzli icmasının müraciəti 19 sentyabrda XİN-ə göndərilir (ARDA, f. 970, s. 1, iş 103, v. 10).

Qeyd edək ki, yerli türk-qarapapaq əhalinin bütün çabalarına rəğmən, Cənubi Qafqaz sovetləşəndən sonra, regionda ali bolşevik orqanı rolunu həyata keçirən Rusiya Kommunist Partiyasının Mərkəzi Komitəsinin Qafqaz bürosunun İ.Stalinin iştirakı ilə keçirilmiş 7 iyul 1921-ci il tarixli plenumunun qərarı ilə Lori nahiyəsində yaradılmış neytral zona Ermənistan Sovet Sosialist Respublikasına birləşdirilir (Məmmədli, 1991, s.43).

**Gürcüstan Qarapapaqları Sovet İşğalına Qarşı Mübarizədə**

1920-ci il aprel ayının 27-də Azərbaycanda baş vermiş bolşevik çevrilişi Gürcüstanı da real təhlükə ilə üz-üzə qoyur. Həmin ilin may-iyun aylarında Sovet Azərbaycanı ilə Gürcüstan arasında qısamüddətli silahlı münaqişə baş verir.

Yaranmış durum Gürcüstanın türk-müsəlman əhalisi arasında, təbii olaraq, həyəcana səbəb olur. Bununla bağlı Gürcüstan Müsəlmanları Milli Şurası GDR hökumətinin tövsiyəsi ilə yerli müsəlmanlara müraciət edərək, onlardan özlərini sakit aparmalarını, heç nədən narahat olmayıb və ziyanlı ünsürlərin təsiri altına düşməyib sülh şəraitində yaşamlarını davam etdirməyi xahiş edir (Slovo, 1920, 101, s. 3). 1920-ci ilin may ayının 14-də Əziz Şərifin sədrliyi ilə Katerinenfelddə//Yekaterinenfelddə (indiki Bolnis şəhərində) Borçalı müsəlmanlarının qurultayı keçirilir. Qurultay iştirakçıları Ə.Şərifin imzası ilə Gürcüstan Respublikası hökumətinin sədrinə belə bir depeşa göndərir: “Borçalı müsəlmanlarının qurultayı sizi – hüquq-bərabərlik bayrağını yüksəkdə tutan, respublikanın müstəqilliyini qapıda dayanmış düşməndən (bolşeviklərdən – F.V.-H.) qorunmasını əhd etmiş gürcü demokratiyasının rəhbərini salamlayır. Yaşasın Gürcüstan Respublikası” (Sakartvelos respublika, 1920, s. 3; Slovo, 1920, s. 3).

Qurultay tərəfindən Gürcüstan Müəssislər Məclisinin sədrinə də aşağıdakı məzmunda teleqram ünvanlanır: “Borçalı müsəlmanlarının qurultayı xalqın iradəsinin ifadəçisi olan

Müəssislər Məclisini salamlayır və ümid edir ki, Gürcüstanın birləşmiş demokratiyası respublikanın bütün düşmənlərinə cavab verəcək" (Slovo, 1920, s. 3).

Gürcü mətbuatı Sovet Azərbaycanı ilə ixtilaf zamanı Gürcüstanın yerli türk-müsəlman əhalisinin təxribata uymayıb Gürcüstan hökumətinə loyal olduğunu yazırdı (Sakartvelos respublika, 1920, s. 4; Sakartvelos respublika, 1920, s. 2). "Sakartvelos Respublika" qəzetinin məlumatlarından həmin dövrdə yaranmış cəbhəyə yardım baş komitəsinin hesabına Gürcüstan türk-müsəlmanlarından İbrahimovun 100 man., Yadigarovun 500 man., Cəfərovun 150 man., Sadıqoğlunun 100 man., Bayramovun 100 man., Hümbətovun 200 man., Zalidovun 150 man., Əkbərovun 700 man., Abbaszadənin 200 man., Hacıyevin 200 man. pul keçirdiyi bəlli olur (Sakartvelos respublika, 1920, s. 4).

12 iyun 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası ilə Gürcüstan Demokratik Respublikası arasında sülh sazişi imzalanır (Sakartvelos respublika, 1920, s. 2) və ölkələr normal əməkdaşlıq müstəvisinə qədəm qoyurlar.

1920-ci ilin noyabr ayında Ermənistanda bolşevik hakimiyyəti qurulduqdan sonra Qafqazda 1918-ci ildə yaradılmış dövlətlər arasında mövcudiyyətini davam etdirən yeganə dövlət olan Gürcüstanda sovet işğalı təhlükəsi daha da ciddiləşir. Üç istiqamətdən – Ermənistan, Şimali Qafqaz və Azərbaycan istiqamətlərindən sovet rejimləri ilə əhatə olunmuş ölkənin rəhbərliyi gözlənilən təhlükənin qaçılmaz olduğunu başa düşür və önləyici tədbirlər görməyə, xüsusən də silahlı qüvvələrini gücləndirməyə çalışırdı. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu anlayan Gürcüstan əhalisi, o cümlədən bu ölkədə yaşayan Azərbaycan türkləri orduya köməklik göstərmək üçün səylərini əsirgəmirdilər. "Sakartvelos Respublika" rəsmi dövlət qəzetinin 29 dekabr 1920-ci il tarixli sayında "Müsəlman uşaqların məktubu" başlığı altında orduya 5000 manat maddi yardım toplamış türk uşaqların – İsmayıl, Mikayıl, Muqmal və Lalə Əliyevlərin, İsgəndər, Yusuf və Marqarita Şeyxülislamovların aşağıdakı məzmunda məktubu dərc olunmuşdu:

"Sizdən xahiş edirik, topladığımız 5000 manatı qəbul edin və bizim Gürcüstanı qoruyanlara hədiyyələr alın. Qoy onlar bilsinlər ki, biz onların gördüyü işi qiymətləndiririk: Bizim həyatımızı qoruyurlar və bununla bizim rahat dərslə məşğul olmağımıza şərait yaradırlar. Biz böyüyəndə özümüz qoynunda yaşadığımız əziz Gürcüstanı qoruyacağıq" (Sakartvelos respublika, 1920, s. 4).

"Sakartvelo" qəzetinin 4 yanvar 1921-ci il tarixli sayından isə Gürcüstan Respublikasının vətəndaşı İsmayıl Axundovun "Cəbhəyə yardım baş komitəsi"nə 10000 man., Ələsgər və Ələkbər Babayevlərin - 10000 man., Gürcüstanda məskunlaşmış Azərbaycanlı emiqrantların Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstanda diplomatik nümayəndəsi olmuş Fariz bəy Vəkilovun vasitəsi ilə 10 000 manat, İran təbəəli türklərdən Məmməd Əliyevin - 5000 man., Əli ağa Əliyevin - 5000 man., Mirzə Abbasəli Rzazadənin - 2000 man. və Cəlalov qardaşlarının 5000 man., pul vəsaiti göndərdikləri bəlli olur (Sakartvelo, 1921, s. 4).

Gürcüstana bolşeviklərin təcavüzü özünü çox gözlətmir və bəlli bir ssenari üzrə həyata keçirilir. Belə ki, öncə 30 dekabr 1920-ci ildə Ermənistanın yeni rəhbərliyi yaranmış fürsəti qaçırmayaraq Gürcüstan hökumətinə nota göndərib, Lori nahiyəsinin neytral zonası üzərində daha əvvəl daşnakların irəli sürdüyü iddiaları təzələyir (GMTA, f. 1864, s. 1, v. 26). 1921-ci ilin 11-12 fevralında isə neytral zonada yerləşən rus kəndlərində sovet təbliğat maşınının "Gürcüstan zəhmətkeşlərinin üsyanı" adlandırdığı qiyam təşkil olunur və daha sonra "qardaşlıq köməyi" adı altında işğal əməliyyatına start verilir. İlk olaraq Sovet Rusiyası və Sovet Ermənistanının silahlı dəstələri anidən Gürcüstanın Lori nahiyəsinin Sənain və Vorontsovka məntəqələrində yerləşən

hərbi qarnizonlarına hücum edirlər. Sənaindəki gürcü ordu birlikləri geri çəkilərək Ayrım-Sadaxlı, Vorontsovkadakılar isə Katerinenfeld xəttində mövqe tutmağa məcbur olurlar.

Beləliklə, Gürcüstan Demokratik Respublikası varlığını qoruya bildiyi 33 ay ərzində ikinci dəfə, həm də eyni istiqamətdən (Ermənistandan) eyni ərazilərin (Borçalı qəzasının Lori nahiyəsinin) işğalına məruz qalır. Əslən Qaxdan olan məşhur hüquqşünas, publisist və din xadimi Rafiel İngilo-İvanitski “Sakartvelo” qəzetinin 15 fevral 1921-ci il tarixli sayında çap etdirdiyi “Rusların-ermənilərin Borçalıya hücumu. Qızıl Ermənistanın hücumu” başlıqlı məqaləsində 1918-ci ilin dekabr ayında baş vermiş Ermənistan-Gürcüstan müharibəsinə eyham vuraraq bolşevik Ermənistanın öz məkrli niyyətlərini eynilə daşnak Ermənistanın metodu ilə həyata keçirməyə çalışdığını yazırdı (Sakartvelo, 1921, s. 2). “Ertoba” qəzetinin həmin günkü sayında isə GDR hökumətinin başçısı N.Jordaniyanın Gürcüstan vətəndaşlarına müraciətinin məzmunu çap olunmuşdu. Müraciətdə deyilirdi: “Vətəndaşlar, 1918-ci il hadisələri təkrarlandı. Ermənistan yenə xəyanətkarcasına hücum etdi, yenə qan və müharibə bayrağını dalğalandırdı və müxənnətcəsinə səssizcə bizim sərhədlərə soxuldu. İki il qabaq etdiyi yolla, həmin qaydada. Bu ayın 12-də gecə Ermənistanın ön dəstələri bizim mühafizə postlarına hücum etdi...” (Ertoba, 1921, s. 1). Sözlərinin davamında Ermənistanın Borçalı qəzasının cənub-şərq sərhədlərini ələ keçirdiyini bildirən N.Jordaniya hökumətin səfərbər olub hazırlıq tədbirlərini gördüyünü deyirdi.

1921-ci ilin 16 fevralında rus və erməni bolşeviklərinin ortaq qüvvələri Borçalı qəzasının mərkəzi Şüləverə soxulurlar. “Ertoba” qəzeti 20 fevral 1921-ci il tarixli sayında dərc olunmuş “Vətən xainləri” başlıqlı məlumatda Şüləverdə bolşevik inqilab komitəsinin yaradıldığını və onun tərkibini Hayk və Hamaik Nazaretyanların “gözəlləşdirdiyini” vurğulayırdı (Ertoba, 1921, s. 4).

Mənbələrdən Gürcüstan Qarapapaqlarının hər zaman olduğu kimi, Bolşevik işğalı dövründə də gürcü həmvətənləri ilə bir sırada çiyin-çiyinə dayanaraq ölkənin müstəqilliyinin qorunması uğrunda döyüşlərdə fədakarcasına iştirak etdikləri aydın olur. “Sakartvelo” qəzeti “Müsəlmanların loyallığı” sərlövhəli məlumatında yazırdı: “General-qubernatorun adına Yekaterinenfelddən gələn məlumatlara görə, yerli müsəlman sakinlər Gürcüstana qarşı xoş niyyətlərini bildirirlər və hər cür yardım göstərməyə hazırdırlar” (Sakartvelo, 1921, s. 2). “Sakartvelos respublika” qəzeti isə “Borçalı müsəlmanlığı” başlığı altında Borçalı qəzasının qarapapaq nümayəndə heyətinin 17 fevral 1921-ci ildə Gürcüstan hökumətinin sədri Noe Jordaniya ilə görüşü barədə belə bir xəbər yayırdı:

> Dünən hökumətin sədrinə Borçalı müsəlmanlarının nümayəndələrini təqdim etdilər. Onlar sədrə bəyan etdilər ki, müsəlmanların hamısı Gürcüstan torpağını-suyunu namərd düşməndən qanı ilə qorumağa hazırdır: “Biz gürcü millətinin yanında doğulmuşuq, böyümüşük və onunla birlikdə düşmənlə mübarizədə ölməliyik. Rusiya hökuməti etibarsız yanaşdığı üçün bizi orduya çağırmırdı, sizdən isə xahiş edirik ki, bizlərdən əli silah tuta bilən hər kəsi orduya çağırın” – Borçalı nümayəndə heyəti bəyan etdi. Bundan başqa onlar sədri bizim ordunun necə cəsarətlə döyüşdüyü barədə (Sadaxlı-Ayrım istiqamətində - F.V.-H.) bilgiləndirdilər və həmçinin, qiyam etmiş ermənilərin dinc müsəlman sakinlərə qarşı barbarlığını təsvir etdilər. Hökumətin sədri nümayəndə heyətinə istənilən köməkliyi göstərəcəyinə söz verdi və Azərbaycan, bütünlükdə müsəlman demokratiyasının dəstəyi ilə nəinki Gürcüstanın, Azərbaycanın özünün də bolşevik tiranyasından azad olunacağına böyük ümid bəslədiyini ifadə etdi (Sakartvelo, 1921, s. 2).

Bu görüşün səhəri günü – 18 fevralda türklərdən ibarət süvari dəstə Gürcüstan Milli Demokrat Partiyasının səfərbərlik şöbəsinin rəhbəri David Vaçnadzenin hüzurunda döyüşə hazır vəziyyətdə dayanır. "Sakartvelo"nun 19 fevral 1921-ci il tarixli sayında "Borçalı və Tiflisin müsəlman dəstələri" başlıqlı yazıda bununla bağlı aşağıdakılar qeyd olunurdu:

"Dünən Demokrat Partiyasının səfərbərlik bürosunun binası qarşısına polkovnik Yadigarovun (böyük ehtimal, İsrafil bəy Yadigarov) başçılığı altında Borçalı və Tiflis müsəlmanlarından təşkil olunmuş 200 nəfərlik dəstə gəldi. Dəstəni partiyanın səfərbərlik bürosunun müdiri polkovnik Vaçnadze salamladı. Cavab nitqində dəstənin adından Yadigarov bəyan etdi ki, Borçalı və Tiflis müsəlmanları hər zaman Gürcüstanın paytaxt şəhərinin vəfalı göztətçiləri olmuşlar və bu gün də öz vəzifələrini sədaqətlə yerinə yetirəcəklər" (Sakartvelo, 1921, s. 2).

Gürcü mətbuatı Tiflisdə Azərbaycanlıların və Dağlıların Komitəsinin iclası barədə də bilgi verərək, toplantıda bolşeviklərin Gürcüstana yönəlik hərbi təcavüzünə qarşı müqavimət tədbirləri çərçivəsində türklər və Şimali Qafqaz dağlılarından ibarət könüllü dəstələrin yaradılmasının qərara alındığını, əksəri keçmiş zabitlərdən ibarət 200-ədək könüllünün artıq dəstəyə yazıldığını bildirirdi (Sakartvelos respublika, 1921, s. 2). Qeyd edək ki, Azərbaycanı və Dağlılar Respublikasını bolşeviklərdən azad etmək məqsədini daşıyan komitənin 10 nəfərdən (7 dağlı və 3 azərbaycanlı) ibarət tərkibində Heydər Bammat, Mustafa Vəkilov, Əhməd Salikov, Əlixan Qantəmir kimi nüfuzlu siyasi-ictimai xadimlər təmsil olunurdular.

Borçalı qəzasının mərkəzini ələ keçirdikdən sonra bolşeviklər bütün qüvvələrini paytaxt Tiflisə doğru yönəldirlər. Gürcüstan silahlı qüvvələri Tiflis ətrafında 3 sahə üzrə müdafiə xətləri quraraq müxtəlif istiqamətlərdən şəhərə daxil olmaq istəyən bolşeviklərin qarşısını kəsməyə çalışırlar. Kür çayının sol sahili üzrə Orxevi çevrəsində müdafiə xəttinə general A.Cicixiya, Kür çayının sağ sahili üzrə Soğanlıq və Tabaxmela arasında yaradılmış müdafiə xəttinə general Q.Mazniaşvili, Tabaxmela-Qocor-Koroğlu qalası – Məngilis müdafiə xəttinə isə general A.Andronikaşvili komandanlıq edirdi.

1921-ci ilin 20 fevral tarixində bolşeviklərin Qocor-Tabaxmela yönündən hücumu heç bir nəticə vermir. Bunun səhəri gün Orxevi cəbhəsində əks-hücumla qarşılaşan Sovet Rusiyasının XI Qızıl ordusunun bölmələri 10 km geri çəkilməyə məcbur olur. GDR silahlı qüvvələrinin baş komandanı general Q.Kvinitadze öz xatirələrində Gürcüstan tərəfinin qazandığı bu uğuru "kapitan Ediqaraşvilinin (Yadigarovun – F.V.-H.) Borçalı könüllülərinin kavaleriya (süvari) yüzlüyü ilə gücləndirilmiş qvardiyanın çevik və effektiv fəaliyyəti" ilə əlaqələndirirdi (Kvinitadze, 1999, s. 72-73; Baxtadze, 2011, s. 37). Həmin döyüşlərdə iştirak edən gürcü yunker (hərbi təhsil müəssisəsinin müdavimi) Mixeil Dadiani xatirələrində yazırdı:

> Polkovnik Cxeidze məni mayor Elizbar Şarvaşidzeyə yazılı əmrin çatdırılması üçün 4-cü minliyə (alaya) göndərəndə zil qaranlıq idi. Yolun yarısını getmişdik ki, atların ayaq səslərini eşitdim. Öz atımı saxladım, azacıq həyəcanlandım. Düşündüm: "Bəlkə ruslardır?". Ancaq çox zamanımız yox idi. Atamın hədiyyə verdiyi tüfəngi tuşlayıb rusca səsləndim: - "Kto idyot?" ("Kimdir gələn?"). Cavab aldım: - "Borçalintsı" ("Borçalılar"). Bu, A.Yadigarovun başçılığı altında Borçalı tatarlarının iyirmi nəfərlik süvari dəstəsi idi. O, general Andronikaşvilinin qərargahının yerini soruşdu. Mən başa saldım və bir-birimizdən ayrıldıq" (1918-1921-ci illər Gürcüstan ordusu haqqında yunker Mixeil Dadianinin xatirələri, www.gmas.ge).

Bundan sonra əlavə qüvvələr hesabına hərbi güclərini Tiflisin girişlərində yenidən qruplaşdıran bolşeviklər 1921-ci ilin 25 fevral tarixində şəhərə tam nəzarəti ələ keçirirlər. Beləliklə, Gürcüstan Demokratik Respublikasının timsalında Cənubi Qafqazın son demokratiya dayağı çökdürülmüş, müstəqillik məşəli söndürülmüş olur. GDR hökumət üzvlərinin əksəri Avropa ölkələrində sığınacaq tapır.

**GDR-İn Süqutundan Sonra Sovet Hakimiyyətinə Qarşı Fəaliyyət Və Üsyanlarda Qarapapaqlar**

Bolşevik istilasından sonra Qafqazın bir çox guşələrində olduğu kimi, Gürcüstanda da bərqərar olmuş yeni sovet rejiminə qarşı tez-tez çıxışlar, üsyanlar baş verir və bu xalq hərəkatlarında yerli qarapapaqlar az rol oynamırlar. Bu xüsusda Tiflis qəzasının Qarayazı nahiyəsinin Kosalı kəndinin sakini, tanınmış müsavatçı Qurban Hacıbayramlının rəhbərliyi altında “Qarayazı” gizli antisovet təşkilatının fəaliyyəti daha çox nəzərə çarpır. Bu təşkilat Gürcüstanın sovetləşməsinə qarşı barışmaz silahlı mübarizə aparan, GDR hökumətində müdafiə nazirinin müavini vəzifəsini tutmuş knyaz Kakutsa Çoloğaşvilinin (Kayxosro Çelokayevin) partizan dəstələri ilə sıx əməkdaşlıq edirdi. 1924-cü il antisovet üsyanının amansızca yatırılması nəticəsində K.Çoloğaşvilinin silahdaşları ilə Türkiyəyə keçməsinə məhz “Qarayazı” partizan təşkilatı köməklik göstərmişdir (Hacıbayramlı, 2020, s. 20).

Xatırladaq ki, 1924-cü ilin avqust ayında K.Çoloğaşvilinin başçılığı altında böyük bir üsyan baş qaldırmışdır. 29 avqust 1924-cü ildə K.Çoloğaşvilinin dəstəsi Tiflis yaxınlığındakı Məngilis qəsəbəsində yerləşən hərbi kazarmalara hücum etmiş, Duşet şəhərini və Priyut kəndini ələ keçirmişdir, 3 sentyabrda isə Svimoniani-Xevi kəndi yaxınlığında bolşevik qüvvələrini darmadağın etmişdir. Üsyançıların Tiflisə doğru irəliləmək planı kütləvi xalq dəstəyi ala bilmədiyi üçün həyata keçirilməmiş və K.Çoloğaşvili öz tərəfdarları ilə Duşeti tərk edib Türkiyəyə, oradan da daha sonra Fransaya keçmək məcburiyyətində qalmışdır. Nəticə etibarilə üsyançılardan bir çoxu bolşeviklər tərəfindən həbs edilərək ölümə məhkum edilmişdir.

Gürcüstan Daxili İşlər Nazirliyinin arxivində saxlanılan Gürcüstan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sənədlərindən məlum olur ki, ÇK (Fövqəladə Komissiya) tərəfindən 1924-cü ilin avqust üsyanında iştiraka görə güllələnən 857 nəfərdən 9-u Azərbaycan türkü olmuşdur (Endeladze, 2004, s. 33-34). Onlardan ikisinin – Bayramov Kiçik Hacıbala oğlu (1890-cı il təvəllüdlü, Tiflis şəhər sakini, menşevik) və Caralov Nikoloz Fərəməz oğlunun (1898-ci il təvəllüdlü, Sığnaq rayonunun sakini, menşevik) 1 sentyabr 1924-cü ildə qətlə yetirildiyi bəllidir.

Onu da əlavə edək ki, tanınmış gürcü yazarı Nuqzar Şataidze K.Çoloğaşviliyə həsr etdiyi “Ağ at” əsərində Borçalı atlılarının başçısı Hacıxəlil obrazına geniş yer ayırmışdır. Çox güman ki, bu obraz Borçalı qəzasının Sarvan kəndinin sakini, məşhur qaçaq, qarapapaqlardan ibarət dəstəyə başçılıq edərək uzun müddət Gürcüstanın sovetləşməsinə qarşı fəal mübarizə aparmış Hacıxəlil ağa Bayramovun prototipidir.

Bir tərəfdən Borçalıda sayılıb-seçilən Hacıbayramlı ocağının nümayəndələrinin öndərliyində “Qarayazı” gizli təşkilatının yerli əhali arasında nüfuzunun artması, digər tərəfdən isə hakim kommunist rejiminin milli müstəqillik şüurunun məhvinə yönəlmiş qəddar müstəmləkəçilik siyasəti, kəndlilərin ağır istismarı və zorakı kollektivləşdirilməsi Qarayazıda kolxoz (kollektiv təsərrüfat) quruculuğuna qarşı kəndli üsyanının başlanmasına rəvac vermişdir. Cənubi Qafqazda ən böyük, mütəşəkkil və uzunmüddətli silahlı antisovet çıxışlarından olan üsyana İsaxan Hacıbayramlı (1897-1930) başçılıq etmişdir. 1929-cu ilin oktyabr ayında

alovlanmış üsyan İsaxanın 1930-cu ilin dekabr ayında Güney Borçalının Cəlaloğlu qəsəbəsində aldadılaraq öldürülməsi ilə sonlanmış, onun iştirakçılarından bəziləri, o cümlədən ideoloji-mənəvi rəhbərlərindən "Xozeyin" ləqəbli Qurban və Nağı Hacıbayramlı qardaşları [Kurban Açıksöz (1894-1973) və Naki Bayramgil (1902-1987)] Türkiyəyə mühacirət edərək siyasi mübarizələrini davam etdirmiş, qalanları isə sovet rejimi tərəfindən məhv edilmişdirlər (İsaxanlı, 1996, s. 34-42; İsaxanlı, 1998, s. 55-58; Ömərli, 2001, s. 151-187; Hacıbayramlı, 2020; Hacıbayramlı, Hacıkişi oğlu, 2022).

**Sonuç**

Mənbələrə istinadən yuxarıda təqdim olunan məlumatlardan görünür ki, Gürcüstan qarapapaqları sakini və vətəndaşı olduqları dövlətin tarixinin hər dönəmində olduğu kimi, 1918-1921-ci illərdə – Gürcüstan Demokratik Respublikası dövründə də gürcü xalqı ilə eyni mövqedə dayanaraq ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda ləyaqətlə döyüşüblər. Həmin tarixi dövrə təsadüf edən Ermənistanla müharibədə və sovet işğalına qarşı döyüşlərdə onlar əsasən könüllü süvari dəstələrdə və xalq qvardiyası sıralarında, sovetləşmədən sonra isə partizan dəstələrində, o cümlədən Gürcüstanın milli qəhrəmanı polkovnik K.Çoloğaşvilinin rəhbərlik etdiyi partizan dəstəsində qəhrəmanlıqla vuruşaraq öz Vətənləri naminə canlarını əsirgəməyiblər.

**Kaynaklar**


Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA).

Azerbaydjan qəzeti (1919). 4 yanvar (rus dilində).

Baxtadze M. (2011). 13 taleyüklü gün - 1921-ci ilin fevralının qanlı xronikaları . "İstoriani" jurnalı. Tiflis, fevral (gürcü dilində).

Borba qəzeti (1918). 17 oktyabr (rusca).

Endeladze T. (2004). Faciəvi 1924. Tiflis (gürcücə).

Ertoba qəzeti (1918). 17 oktyabr, 15 dekabr; 21 dekabr (gürcücə).

Ertoba qəzeti (1919). 25 fevral.

Ertoba qəzeti (1921). 15 fevral; 20 fevral.

Gürcüstan Mərkəzi Tarix Arxivi (GMTA), fond 1833, siyahı 1, iş.

Gürcüstan Mərkəzi Tarix Arxivi (GMTA), fond 1864, siyahı 1, iş.

Hacıbayramlı N. B. (2020). Bolşevik işğalı və mübarizəmiz (siyasi mühacir xatirələri). Bakı.

Hacıbayramlı F., Hacıkişioğlu F. (2022). Qarayazılı Hacıbayramlılar tarixi mənbə və xatirələrdə, Bakı.

İsaxanlı H. (1996). Mərkəzi Zaqafqaziyanin sovetləşməsi və kollektivləşdirilməsi dövrünün ictimai-siyasi mənzərəsi və İsaxan üsyanı. Tiflis: "Gürcüstan" qəzeti.

İsaxanlı H. (1998). Qafqazda Sovet terroruna qarşı 1928/30-cu illər silahlı müqavimət hərəkatı haqqında // "Qafqazda Sovet totalitarizmi (20-30-cu illər)" elmı konfransının (Bakı – 6-7 noyabr 1998-ci il) materialları. Bakı, 55-58.

Kavkazskoye slovo qəzeti (1918). 17 oktyabr, 222(187) (rusca).

Kvinitadze Q. (1999). Xatirələr: Gürcüstanın müstəqillik illəri, 1917-1921, II cild. Tiflis: Lomisi nəşr (gürcücə).

Qruziya qəzeti (1918). 20 dekabr; 21 dekabr; 24 dekabr (rusca).

Marxuliya Q. (2007). 1918-1920-ci illərdə erməni-gürcü qarşılıqlı münasibətləri, Tiflis (rusca).

Məmmədli Ş. (1991). Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticələri, Bakı.

Mustafa R. (2020). Qərbi Azərbaycan və Borçalının XIX-XX əsrlərdə yadellilərə qarşı mübarizə tarixindən, Bakı.

Ömərli V. (2001). Qarayazı I. Bakı.

Probujdeniye qəzeti (1918). 29 dekabr (rusca).

Saxalxo Sakme qəzeti (1918). 22 dekabr; 27 dekabr (gürcücə).

Sakartvelo qəzeti (1918). 21 dekabr; 22 dekabr; 27 dekabr (gürcücə).

Sakartvelo qəzeti (1919). 1 yanvar; 15 yanvar; 9 fevral; 21 fevral; 1 may; 21 sentyabr.

Sakartvelo qəzeti (1921). 4 yanvar; 15 fevral; 17 fevral; 19 fevral.

Sakartvelos respublika qəzeti (1918). 19 dekabr; 22 dekabr; 25 dekabr; 29 dekabr (gürcücə).

Sakartvelos respublika qəzeti (1919). 31 yanvar.

Sakartvelos respublika qəzeti (1920). 16 may; 22 may; 15 iyun; 18 iyun; 27 iyun; 29 dekabr.

Sakartvelos respublika qəzeti (1921). 18 fevral; 19 fevral.

Slovo qəzeti (1920). 7 may; 18 may (rusca).

1918-1921-ci illər Gürcüstan ordusu haqqında yunker Mixeil Dadianinin xatirələri (təqdim edəni: Q.Mamuliya), www.gmas.ge (09.04.2015) (gürcücə).

http://legionerebi.com/armia1918/?p=1084 (03.03.2018).

## Extended Abstract

During its existence, the Democratic Republic of Georgia (DRG), which declared its independence on May 26, 1918, encountered disputed territorial issues with neighboring countries and faced a number of external threats in this regard, as well as threads to its independence. Although attempts were made to resolve these problems through negotiations and international conferences, this was not always possible and led to armed conflicts. Therefore, one of the main goals facing the leadership of the DRG was the creation of a regular army. The first steps taken in the direction of building the army were aimed at the creation of the relevant legislative framework, and special laws and regulations on the organization of the regular army were adopted.

The DRG's social-democratic government formed its own military units - the People's Guard - parallel to the regular army units. The People's Guard, with its artillery, armored trains, engineer-fortification troops, and other military units, quickly acquired the status of the country's second military organization. The founding day of the Red Guard - December 12, was declared the Day of the People's Guard and was first solemnly celebrated on December 12, 1918,

throughout Georgia, including in the Karayazi uchastok (subcounty) of Tiflis uezd (county), where the Karapapakhs, a sub-ethnic branch of the Azerbaijani Turks, lived compactly (Ertoba, 1918, No. 271, p. 3).

Although Georgian Karapapakhs were not conscripted into the ranks of the regular army due to their religious affiliation, they bravely fought and fulfilled their duties to the Motherland in the ranks of the People's Guard, as well as in the volunteer cavalry units they quickly created when the territorial integrity and independence of the country faced serious threats.

On December 12, 1918, the armed forces of the Republic of Armenia (Republic of Ararat), which had ambitions regarding Borchaly and Akhalkalaki uezds, attacked the border units positioned in the Lori uchastok of Borchaly uezd, sparking a war. Reports from the Georgian press in 1918 indicate that during the Armenian-Georgian war, the Karapapakhs of the Karayazi uchastok and Borchaly uezd, which quickly organized volunteer units, waited for the order of the military command. In the “Sakartvelo” newspaper, it was announced that K.Svimonishvili, the chairman of the Georgian-Muslim Charitable Society of Borchaly uezd, submitted a petition to the government regarding the creation of a volunteer group in Borchaly (Sakartvelo, 1918, No. 245, p. 2). The following information was published in the next issue of “Sakartvelo”: “On Friday, December 20, a group of 400 Muslim horsemen arrived in Tiflis from Karayazi”. The volunteer cavalry of the Karayazis was commanded by the commissar of this region, Abbasgulu Nuri oglu (Nuriyev), a member of the “Hummet” Muslim Social-Democratic Organization. In the official state newspaper “Sakartvelos Respublika”, referring to the information given by Tiflis uezd commissioner Gomarteli, it was reported that a cavalry unit of Muslims from Karayazi had arrived in Tiflis to “ensure security, law, and order” in the city.

The Turkic-Karapapakh people of Borchaly uezd, who lived in the center of the battle area, like their compatriots living in the Karayazi region, openly supported the Georgian government, declared that they would not agree to Armenian control over their uezd under any circumstances, and fought against the enemy that invaded their homes.

Aziz Sharif and Abdurrahim Bey Hagverdiyev, who held deputy mandates as representatives of the local Turkic community in the National Council of Georgia, openly expressed the citizenship position of the community they represented regarding statehood and the territorial integrity of the country. On December 17, 1918, the representatives of Borchaly Karapapakhs met with the chairman of the Georgian government, Noe Jordania, and expressed their support (Qruziya, 1918, No. 90).

“Sakhalkho Sakme” newspaper also drew the attention of its readers to the position of the Georgian Karapapakhs in the Georgian-Armenian war, writing under the headline “Borchaly Muslims”: “Representatives of Borchaly Muslims declared to the government that Borchaly should remain within the borders of Georgia and they will fight together with Georgia against the enemy whose forces have entered here” (Sakhalkho Sakme, 1918, No. 414, p. 3). Another issue of this newspaper stated: “General Lenko Maghalashvili's volunteer army is growing by the hour. When the Borchaly Tatars (Turks – F. V.-H.) heard that Maghalashvili was gathering volunteers against the greedy enemy, 300 fighters came out of 2-3 villages in one day, armed, and joined our army under the leadership of their senior officers. The Tatars say: Even if we die, we will not subject ourselves to those greedy people” (Sakhalkho Sakme, 1918, No. 418, p. 2).

On December 31, 1918, the last day of the Georgian-Armenian war, DRG`s Minister of War, Grigol Giorgadze, met with Turkic-Muslim volunteers. “Sakartvelo” newspaper wrote about

this: “Yesterday at 1 o'clock in the afternoon, a large group of Muslim volunteers came to the Minister of War. The leader of the group promised that Muslims living on the land of Georgia consider it their sacred duty to "protect their homeland Georgia until the last drop of blood" with weapons in their hands. The military minister welcomed the detachment” (Sakartvelo, 1919, No. 1, p. 2).

According to the terms of the peace agreement reached between Georgia and Armenia with the mediation of the British on January 1, 1919, until the border line between the two countries was determined by the Supreme Council of the Entente, the north of Borchaly uezd remained in Georgia, and the south was included in the jurisdiction of Armenia, the middle area between Ayrum and Shakhali stations was declared a “neutral zone” and was temporarily placed under the control of the British governor-general. The Turkic-Karapapakh villages of the neutral zone wanted to remain under Georgia or become a part of Azerbaijan, and they tried to use all opportunities for this.

In April 1920, the Bolshevik government was established in Azerbaijan and in November in Armenia. After that, the danger of Soviet occupation in Georgia, which continued to exist among the states built in 1918 in the Caucasus, becomes even more serious. The leadership of the country, surrounded by Soviet regimes from three directions - from Armenia, the North Caucasus, and Azerbaijan understood that the impending danger was inevitable and tried to take preventive measures.

On February 16, 1921, Russian and Armenian Bolsheviks invaded the center of Borchaly uezd, Shulaver settlement.

From the sources, it is clear that the Karapapakhs of Georgia, as always, during the Bolshevik occupation, stood shoulder to shoulder with their Georgian compatriots and selflessly participated in the battles for the protection of the country's independence. “Sakartvelo” newspaper wrote in its report entitled “Loyalty of Muslims”: “According to the information received from Yekaterinenfeld on behalf of the Governor-General, the local Muslim residents express their goodwill towards Georgia and are ready to provide all kinds of assistance” (Sakartvelo, 1921, No. 37, p. 2). “Sakartvelos Respublika” newspaper, under the title "Borchaly Muslimness", published news about the meeting of the Karapapakh delegation of Borchaly uezd with the chairman of the Georgian government, N. Jordania, on February 17, 1921 (Sakartvelo, 1921, No. 38, p. 2). On the morning of this meeting, on February 18, a cavalry unit of Georgian Turks stood ready for battle in the presence of David Vachnadze, the head of the mobilization department of the National Democratic Party of Georgia (Sakartvelo, 1921, No. 39, p. 2).

After capturing the center of Borchaly uezd, the Bolsheviks directed all their forces towards the capital Tiflis. On February 20, 1921, the attack of the Bolsheviks from the Kodjori-Tabakhmela direction did not yield any results. On the next morning the units of the 11th Red Army of Soviet Russia, facing a counterattack on the Orkhevi front, were forced to retreat 10 km. In his memoirs, the commander-in-chief of the DRG armed forces, General G. Kvinitadze, attributed this success of the Georgian side to “the agile and effective actions of the guard, reinforced by the cavalry hundred of Borchaly volunteers of captain Edigarashvili (Yadigarov – F.V.-H.)”.

After that, the Bolsheviks regrouped their military forces at the entrances of Tiflis due to additional forces and took full control of the city on February 25, 1921. Thus, the Democratic

Republic of Georgia, the last pillar of democracy in the South Caucasus was destroyed, and the torch of independence was extinguished.

After the Bolshevik invasion, as in many corners of the Caucasus, there were frequent demonstrations and uprisings against the new Soviet regime established in Georgia, and local Karapapakhs played significant role in these popular movements.

In this regard, the activities of the secret anti-Soviet organization “Karayazi”, under the leadership of the well-known Musavatist Kurban Hajibayramli, a resident of Kosaly village, Karayazi uchastok, Tiflis uezd, are particularly noticeable. This organization closely cooperated with the partisan units of Kakutsa (Kaikhosro) Cholokashvili, who led an uncompromising armed struggle against the sovietization of Georgia and held the position of Deputy Minister of Defence in the DRG government. As a result of the brutal suppression of the 1924 anti-Soviet rebellion, it was the “Karayazi” partisan organization that helped K. Cholokashvili and his comrades in arms move to Turkiye (Hacıbayramlı, 2020, p. 20).